# Beynəlxalq Əlillər Günü ilə əlaqədar tədbir

Dekabrın 3-də Qəbələ Uşaq və Ailələrə Dəstək Mərkəzində Beynəlxalq Əlillər Günü ilə əlaqədar tədbir keçirilib.

Tədbirdə rayondakı əlil uşaqların bir qrupu, onların valideynləri iştirak edib.

Yığıncaqda ölkəmizdə əlil insanlara göstərilən dövlət qayğısından, onların sosial rifahının yüksəldilməsi, sosial təminatlarının daha da yaxşılaşdırılması ilə bağlı görülən işlərdən, bu istiqamətdə Qəbələ rayonunda həyata keçirilən tədbirlərdən danışılıb. Bildirilib ki, əlil insanlara diqqət və qayğı cəmiyyətimizin hər üzvünün borcudur. Bununla əlaqədar əlillərlə bağlı müxtəlif tədbirlərin həyata keçirilməsi dövlət tərəfindən hər zaman diqqət mərkəzində saxlanılır.

Ulu öndər Heydər Əliyev tərəfindən əsası qoyulan əlillərin sosial müdafiəsinin gücləndirilməsi ilə bağlı dövlət proqramlarının bu gün Prezident İlham Əliyev tərəfindən yaradıcılıqla inkişaf etdirilməsinin davamı kimi Azərbaycanın BMT Baş Məclisinin 2006-cı ildə qəbul etdiyi ''Əlillərin hüquqlari haqqında" Konvensiyaya qoşulduğu diqqətə çatdırılıb.

Qeyd olunub ki, Azərbaycanın ərazi bütövlüyü uğrunda şəhid olanların ailələrinə, fiziki sağlamlığını itirən insanlara, onların problemlərinə böyük həssaslıqla yanaşılır.

**Hökümə İSMAYILOVA,**
**UADM-in sosial iş üzrə mütəxəssisi.**

# Seminar-müşavirə keçirilmişdir

Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Nəzarəti Xidməti noyabrın 30-da Qəbələdə yanğın təhlükəsizliyinin təmin olunması ilə bağlı təbliğat xarakterli seminar-müşavirə keçirmişdir. Seminar-müşavirədə xidmətin rəis müavinləri - daxili xidmət polkovnikləri Rəşad Əbilov, Aqşin Kazımov və şöbə rəisləri, RDYNİ-nin əməkdaşları, RYMH-nin rəhbərləri, regionların ərazilərinə daxil olan rayonların icra başçılarının müavinləri, polis rəislərinin müavinləri, qaz paylayıcı və elektrik şəbəkələrinin, MKTİB-nin baş mühəndisləri, icra nümayəndələri və bələdiyyə sədrləri iştirak etmişlər.



Yanğın təhlükəsizliyinin etibarlı təmin edilməsində qarşıda duran vəzifələr, qaz təsərrüfatının istismarı dövründə yanğın, partlayış, zəhərlənmə təhlükəsindən necə mühafizə olunması, elektrik təsərrüfatında yanğın təhlükəsizliyi, yaşayış binalarında yanğın təhlükəsizliyi və tüstü bacalarının təmizlənməsi barədə maarifləndirici çıxışlar olmuş, problemlərin həlli ilə bağlı fikir mübadiləsi aparılmışdır.



Seminar-müşavirələrin sonunda "Dəm qazından ehtiyatlı olun", "Məişətdə yanğın təhlükəsizliyi" mövzularında video-slaydlar nümayiş olumuş, müşavirə iştirakçılarına "Yaşayış evlərinin yanğın təhlükəsizliyi" adlı yaddaş kitabçası və yanğın təhlükəsizliyi qaydalarını təbliğ edən plakatlar paylanmışdır.

**Rais RƏŞİDOV,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

# İnşa yazı müsabiqəsi

Rayon gənclər və idman idarəsinin təşkilatçılığı ilə ümumtəhsil məktəblərinin IX-XI sinif şagirdləri arasında "Azərbaycan gəncliyi 2017-2021-ci illərdə" Dövlət Proqramına uyğun olaraq milli qəhrəmanlarımızın və ölkəmizin ərazi bütövlüyü uğrunda döyüşlərdə şücaət göstərmiş gənclərin tanıdılması ilə bağlı "Şəhidlər ölməz-vətən bölünməz" mövzusunda inşa yazı müsabiqəsi keçirilmişdir. Müsabiqəyə 20-dək məktəbli qatılmışdır.



Müsabiqənin yekunu ilə bağlı dekabrın 6-da rayon icra hakimiyyətində qaliblərin mükafatlandırılma mərasimi keçirilmişdir.

Tədbirdə iştirak edən rayon gənclər və idman idarəsinin rəisi Fəxri Soltanov bildirmişdir ki, müsabiqənin məqsədi gənclərin vətənpərvərlik, azərbaycançılıq və dövlətçilik prinsipləri əsasında tərbiyə olunmasından, həmçinin Vətən uğrunda canından keçən şəhidlərimizin qəhrəmanlıq nümunələrinin gənclər arasında təbliğ edilməsindən ibarətdir.

Tədbirdə rayon təhsil şöbəsinin nümayəndəsi Aslan Şirazov iştirak etmişdir.

Müsabiqənin əsasnaməsinə uyğun olaraq Zalam kənd məktəbinin şagirdi Aytac Ağayeva I yerə, şəhər 4 nömrəli məktəbin şagirdi Lalə Hacıyeva və Yenikənd kənd məktəbinin şagirdi Qönçə Şirinova II yerə, şəhər 2 nömrəli məktəbin şagirdi Kənan Mirzəzadə, şəhər 3 nömrəli məktəbin şagirdi Fidan Cavadlı və Əmirvan kənd məktəbinin şagirdi Aysun Bayramova III yerə layiq görülmüşlər.

Qaliblər gənclər və idman idarəsinin diplom və xatirə hədiyyələri ilə mükafatlandırılmışlar.

**Mübariz AĞAYEV,**
**gənclər və İdman idarəsinin aparıcı məsləhətçisi.**
**İlkin Vəlizadə (foto).**

# Sahibkarlığın inkişaf etdirilməsinə dair təlim

Dekabrın 10-da Azərbaycan Respublikası Sahibkarlar (İşəgötürənlər) Təşkilatları Milli



Konfederasiyası(ASK) Sahibkarlığa və Bazar İqtisadiyyatının İnkişafına Yardım Fondu (SBİİYF) ilə birlikdə dərzi, bərbər, vizajist, toxuculuq, ağac üzərində oyma, rəssamlıq, kulinariya, xalçaçılıq, tikiş, toxuma, dizayner və başqa peşələr üzrə bilik və bacarıqları olan qadınlar üçün Qəbələdə "Qadın biznesinin inkişaf etdirilməsi" mövzusunda təlim keçirib.

ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAİD) Bakı nümayəndəliyi tərəfindən maliyyələşdirilən "Kiçik Sahibkarlığın İnkişafına Dəstək" layihəsi çərçivəsində keçirilən təlimin məqsədi qadınlarda sahibkarlıq düşüncəsini inkişaf etdirmək, yeni biznes sahələrinin yaradılmasına təkan verməkdir.

İki gün davam edən tədbirin yekununda təlimdə iştirak edən və biznes planlar hazırlayan qadınlar arasında kiçik qrant müsabiqəsi keçirilib. Müsabiqədə qalib gələn 50 qadına sahibkarlıq fəaliyyəti üçün maliyyə dəstəyi (qrant) ayrılıb.

**Nahidə ƏBDÜRƏHİMOVA,**
**İlkin Vəlizadə (foto).**
**"Qəbələ"**

# Mülkiyyət və təşkilati-hüquqi formasından asılı olmayaraq bütün müəssisə, idarə və təşkilat rəhbərlərinin nəzərinə

## *Məşğulluğun təmin edilməsində işəgötürənlərin iştirakına dair bildiriş*

Nəzərinizə çatdırırıq ki, "Məşğulluq haqqında" Azərbaycan Respublikası Qanununun 18-ci maddəsinin 18.2., 18.3., 18.4.,18.7. müddəalarında nəzərdə tutulmuş hallarda mülkiyyət və təsərrüfatçılıq formasından asılı olmayaraq işəgötürənlər Məşğulluq Mərkəzinə aşağıdakı rəsmi məlumatları və hesabatları təqdim etməlidirlər:

1. İşdən çıxarılacaq işçilərin peşəsini, ixtisasını və əmək haqqının məbləğini göstərməklə, onların sərbəstləşdiriləcəyi barədə Azərbaycan Respublikasının Əmək Məcəlləsi ilə müəyyən edilən xəbərdarlıq müddətindən az olmayaraq əvvəlcədən rəsmi məlumatın verilməsi;

2. İşə qəbui edilənlər, o cümlədən kvota üzrə işə qəbul edilənlər və işdən çıxarılanlar haqqında aylıq hesabat,

3. İşsiz vətəndaş tərəfindən işə qəbulla əlaqədar göndəriş təqdim edildiyi gündən ən geci 5 (beş) iş günü müddətində vətəndaşın boş iş yerinə işə qəbul olub-olmaması ilə bağlı qəbul edilmiş qərar;

4. Yeni iş yeri yarandığı və ya iş yeri boşaldığı gündən ən geci 5 (beş) iş günü müddətində əmək haqqı göstərilməklə bu barədə məlumatları müvafiq icra hakimiyyəti orqanının müəyyən etdiyi orqan (qurum) tərəfindən müəyyən edilmiş qaydada və formada elektron informasiya sisteminə daxil etməlidirlər.

Yuxarıda qeyd olunanları, həmçinin ölkə Prezidenti cənab ilham Əliyev tərəfindən 30 oktyabr 2018-ci ii tarixli sərəncamı ilə təsdiq olunmuş !;2019-2030-cu illər üçün Azərbaycan Respublikasının Məşğulluq Strategiyasının tələblərinin yerinə yetirilməsi məqsədilə nəzərdə tutulmuş rəsmi məlumatları və hesabatları vaxtıı-vaxtında Məşğulluq Mərkəzinə təqdim olunmasını Sizdən xahiş edirik.

# Yanar ürək, iti qələm...

Rayon tarix-diyarşünaslıq muzeyində xalq yazıçısı, əməkdar incəsənət xadimi, ssenarist, kinoredaktor, "Nəsimi" mükafatının ilk laureatı İsa Hüseynovun (Muğanna) 90 illik yubileyi ilə əlaqədar "Yanar ürək, iti qələm..." adlı tədbir keçirilib.

Tədbirdə ədibin yaradıcılığı barədə geniş məlumat verilib. Hamımızın sevə sevə baxdığı "Nəsimi","Ulduzlar sönmür", "Tütək səsi" və digər filmlərin ssenaristi olan İsa Hüseynovun Azərbaycan incəsənəti, mədəniyyəti, ədəbiyyatı tarixində özünəməxsusluğu ilə böyük izlər qoyduğu, oxunaqlığı ilə diqqət mərkəzində olduğu qeyd olunub.

Tədbirdə ədibin əsərlərindən nümunələr oxunub.

**İlhamə SEYİDOVA,**
**muzeyin elmi işçisi.**